AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
PUBLİK HÜQUQİ ŞƏXS

Təsdiq edirəm
ADMİU-nun rektoru
_________ professor C.E.Mahmudova

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Akademik heyətin işə qəbul qaydaları

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
_26_ dekabr 2022-ci il tarixli iclasının
___05___№-li protokolu ilə təsdiq edilmişdir

Bakı - 2022

Сканировано с CamScanner

## Akademik heyətin işə qəbul qaydaları

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində akademik heyətin işə qəbul edilməsində balanslı yanaşmanı təmin etmək məqsədilə professor-müəllim vəzifələrinə seçim müsabiqə və müsahibə əsasında aparılır.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa əsasən pedaqoji fəaliyyətlə məşğul olmaq üçün müraciət edən şəxs əlaqədar sahədə ən azı magistr dərəcəsinə malik olmalıdır.

Akademik heyətin müsabiqə yolu ilə qəbulu prosesi Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 401 saylı 07.08.0996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tədris planlarına uyğun olaraq kafedralarda vakant saatlar və fənlərin tədrisi üçün pedaqoji kadrlara olan ehtiyac müəyyənləşdirilir. Kafedra müdiri və fakültə dekanı tərəfindən tədris işləri üzrə prorektora və Tədris şöbəsinə təqdimat yazılır, uyğun hesab edildikdə baxılması üçün rektora təqdim olunur, KİV-də və yaxud ADMİU-nun web səhifəsində elan yerləşdirilir. Namizədin uyğunluğu müəyyən olunduqdan sonra sənədləşmənin aparılması üçün İnsan resursları şöbəsinə yönləndilir.

ADMUİ-da professor-müəllim vəzifələrini tutmaq üçün namizədlər aşağıdakı meyarlara cavab verməlidir:

- namizədin ixtisası tədrisi nəzərdə tutulan fənnə uyğun olmalıdır;
- əlaqədar sahədə ən azı magistr dərəcəsinə malik olmalıdır;
- müvafiq ixtisas və fənn üzrə uyğun elm və istehsalat sahələrində nailiyyətlərə, lazımi elmi-pedaqoji və ya istehsalat təcrübəsinə malik olmalıdır;
- müasir tədris standartlarına uyğun sillabus və fənn materiallarını hazırlama bacarıqları;
- tədrisdə İTK-dən istifadə edə bilməlidir;
- Ms Office proqramlarında sərbəst işləmək bacarığı olmalıdır;
- xarici dil bilikləri (ünsiyyət qurmaq, oxumaq və yazmaq bacarığı) vacibdir;
- fənnin prezentasiyasını təqdim etməlidir;
- xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə yaradıcılıq portfoliosunu təqdim etməlidir.

Pedaqoji kadrlara ehtiyacı təmin etmək məqsədilə təqdim olunan CV-lərə baxılır və ixtisası uyğun olan namizədlər dəvət olunur. Daha sonra namizədlərin uyğunluğunun yoxlanılmasına İşə Qəbul Komissiyasında baxılır. Komissiyanın işinə rəhbərliyin göstərişi əsasında sahə üzrə mütəxəssislər daxil ola bilər.

Сканировано с CamScanner

ADMİU-da xüsusi qabiliyyət tələb edən bəzi ixtisaslar üzrə pedaqoji kadr çatışmazlığını nəzərə alaraq tədrisə cəlb olunan professor-müəllim heyəti üçün ADMİU-nun Elmi Şurasının qərarı ilə müstəsna hallara yol verilə bilər. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə magistr dərəcəsi, elmi dərəcə və elmi adı olmayan, orta ixtisas təhsilli, lakin çalışdığı sahələr üzrə yüksək nailiyyətləri, fəxri adı olan peşəkar mütəxəssislər cəlb edilə bilər.

İngilis dili fənnini tədris etmək üçün İELTS və TOEFL imtahanlarını vermiş namizədlərə üstünlük verilir.

Komissiya işini tamamladıqdan və müvafiq rəy bildirdikdən sonra fakültə dekanı və kafedra müdiri tərəfindən tədris işləri üzrə prorektora və Tədris şöbəsinə təqdimat yazılır, uyğun hesab edildikdə rektora təqdim olunur. Göstəriciləri yüksək qiymətləndirilən namizəd ştat cədvəli üzrə akademik heyətə işə qəbul olunur.

ADMUİ-nun Elmi Şurasının qərarı ilə “Akademik heyətin işə qəbul Qaydaları”na əlavə və dəyişikliklər edilə bilər.

Сканировано с CamScanner